## *PEDAQOJİ KADR HAZIRLIĞI*

UOT 378.

**_Gülarə Məhəmməd qızı Qocayeva,_**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*

# TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ PEDAQOJİ KADR HAZIRLIĞINDA DÜNYƏVİLİYİN NƏZƏRƏ ALINMASI

**_Гюлара Мохаммад гызы Коджаева,_**
*доктор философии по педагогике*
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# РАССМОТРЕНИЕ СЕКУЛЯРИЗМА В ОБУЧЕНИИ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ В УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

**_Gulara Mohammad Qojayeva,_**
*PhD in Pedagogy*
*Senior teacher of*
*Azerbaijan State Pedagogical University*

# CONSIDERATION OF SECULARISM IN TRAINING OF PEDAGOGICAL PERSONNEL IN EDUCATIONAL INSTITUTIONS

**Xülasə:** Elmi məqalədə təhsil müəssisələrində pedaqoji kadr hazırlığında dünyəvilik xüsusiyyətlərinin nəzərə alınması əsas tələblərdən biri kimi irəli sürülmüşdür. Qloballaşma, inteqrasiya prosesləri dünya təcrübəsinin öyrənilməsinə, bu təcrübədən bəhrələnməyə imkanlar açır.
***Açar sözlər:*** *pedaqoji kadr, qloballaşma, inteqrasiya, innovasiya, peşə hazırlığı, dünya təcrübəsi*

**Резюме:** В научной статье рассматривается важность секуляризма в обучении педагогических кадров в учебных заведениях как одно из основных требований. Глобализация, интеграционные процессы открывают возможности для мирового опыта и извлекают пользу из этого опыта.
***Ключевые слова:*** *педагогические кадры, глобализация, интеграция, инновации, профессиональная подготовка, мировой опыт*

**Summary:** The scientific article considers the importance of secularism in the training of pedagogical personnel in educational institutions as one of the main requirements. Globalization, integration processes open up opportunities for world experience and benefit from this experience.
***Key words:*** *pedagogical staff, globalization, integration, innovation, vocational training, world experience*

Qeyd etmək lazımdır ki, müəllim hazırlığı tarixin bütün mərhələlərində cəmiyyəti düşündürən əsas məsələlərdən biri olmuşdur. Eyni zamanda hər bir tarixi dövrdə bu məsələyə münasibətdə fərqli düşüncə, fərqli yanaşmalar olmuşdur. Etiraf etməliyik ki, müasir dövr əvvəlki tarixi dövrlərdən kəskin şəkildə fərqləndiyindən hazırda müəllim kadrları hazırlığının məzmunu və problemin həlli istiqamətləri daha ciddi elmi yanaşmalar tələb edir. Bu gün Azərbaycan Respublikası müstəqil dövrlərdir. Azərbaycan xalqı öz milli mənəvi dəyərlərini qorumaqla yanaşı Avropaya, dünyaya inteqrasiyaya həssaslıq yanaşır. Qloballaşma, inteqrasiya prosesləri dünya təcrübəsinin öyrənilməsinə, bu təcrübədən bəhrələnməyə imkanlar açır. Son illərdə ölkəmizdə

pedaqoji kadr hazırlığı aparılan ali və orta ixtisas təhsili müəssisələrinin şəbəkəsi xeyli genişlənmişdir. Hazırda Azərbaycanda pedaqoji kadrların fasiləsiz hazırlığı 22 ali (10 dövlət, 12 qeyri-dövlət), 26 orta ixtisas (23 dövlət və 3 qeyri-dövlət) və 1 ixtisasartırma təhsili müəssisəsində aparılır. Bütün bunlarla yanaşı məktəbəqədər təhsil, ümumi orta, orta ixtisas, ali və əlavə təhsil proqramlarını həyat keçirən elmi-pedaqoji tədris komplekslərinin yaradılması prosesi davam edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" 2013-cü il 24 oktyabr tarixli Sərəncamı təhsilimizin inkişafında yeni bir mərhələ olduğu kimi, yüksək mənəvi, əxlaqi keyfiyyətlərə malik səriştəli müəllim kadrlarının hazırlanması məsələsinə də xüsusi diqqət yetirilmişdir. Bu sənəd təhsil sistemimizin əsası, pedaqoji elmimizin təməl prinsipini ölkə prezidentinin təhsilə göstərdiyi ardıcıl diqqət və qayğısından, onun müdrik kəlamlarından və xüsusilə "maddi kapitalın insan kapitalına çevirmək" ideyasından qaynaqlanır. Məqsəd ölkədə səriştəli, bilikli, yüksək əxlaqi keyfiyyətlərə və dünyəvi dəyərlərə malik müəllim kadrlarının hazırlanması üçün, ən yeni texnologiyalara əsaslanan, müasir infrastruktura malik, yüksək keyfiyyət nəticələrinə görə dünya ölkələrin sırasında qabaqcıl mövqe tutan Avropa standartlarına uyğun, mükəmməl təhsil sistemi yaratmaqdır. Səriştəli pedaqoji kadrlarının hazırlanması, müəllimlərin peşə hazırlıqlarının müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, onların innovativ metodlarla tədris prosesini qurması, təhsilin məzmununun cəmiyyətin tələblərinə, iqtisadi inkişafın tələblərinə uyğun şəkildə qurulması, müəllimin idarəedicilik funksiyasını artırması, ilboyu təhsillə, özünütəhsil və özünütəkmilləşdirmə ilə məşğul olması, məktəbin maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi məsələləri xüsusi yer tutmuşdur. Strategiya ölkədə keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə tədbirlər görülməsini nəzərdə tutur. Bu sənəddə strategiyanın bütün istiqamətlərində səriştəli pedaqoji kadr hazırlığı problemi, müəllimlərin təkmilləşdirilməsi məsələləri xüsusi olaraq əks etdirilmişdir: "Müəllimin pedaqoji fəaliyyəti elə qurulmalıdır ki, o nəinki öz yetişdirmələrinə, hətta ətrafdakı insanlara nümunə olmalıdır".(8,161) Strategiyanın birinci istiqaməti səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılmasıdır. Təhsilin bütün pillələrində məktəbəqədər yaşlı uşaqların fiziki və əqli və əxlaqi inkişafını, sosiallaşmasını təmin edən, yaradıcılıq qabiliyyətlərini üzə çıxaran, onlara bilik və bacarıqları, davranış qaydalarını aşılayan təhsil standartlarının və yeni kurikulumların hazırlanması, təkmilləşdirilməsi nəzərdə tutulur. Səriştəli, yüksək mənəvi, əxlaqi keyfiyyətlərə malik müəllimin ilk növbədə onun uşaqlara məhəbbəti, sevgisi, onların səviyyəsinə enib onlarla düzgün ünsiyyət mədəniyyəti və bəşəri dəyərlərə sahib olması, ixtisasını dərindən bilməsi onun peşə kompetensiyasını əsas tərkib hissəsidir. Strategiyada bu barədə bir daha xatırlanır: "...milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq" (1) təhsil işçilərinin qarşısına mühüm bir vəzifə kimi qoyulmuşdur. Strategiyanın ikinci istiqaməti təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət yeni pedaqoji texnologiyaların tətbiqini, innovativ metodlardan istifadəni də özündə birləşdirir. Strategiyada göstərilir ki, "Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir. Həmin məqsədlə davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin səriştəsinin artırılması təhsil siyasətində mühüm yer tutur.(1)

Deməli, müasir dövrdə müəllimin təlim hazırlığının aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsinə ciddi zərurət vardır:

- Peşə fəaliyyətinin ümumi əsasları;
- İxtisas sahələri;
- İnnovasiyalar.

Dünya təcrübəsi göstərir ki, universitetlər, o cümlədən pedaqoji kadrlar hazırlayan univer-

sitetlər ölkənin gələcəyinin cəmləşdiyi məkan kimi cəmiyyət həyatında böyük rol oynayır. Bu da universitet təhsilinin paradiqmasının əsaslı şəkildə dəyişilməsi, bu paradiqmanın bilavasitə innovasiya fəaliyyətinin məzmunu ilə bağlılığından xeyli dərəcədə asılıdır. Əslində universitetlərin mövcud vəziyyətinə uyğun o ölkənin gələcəyinin proqnozlaşdırılması mümkündür. Ona görə də dünyanın qabaqcıl ölkələrində, o cümlədən Azərbaycanda universitetlərin inkişafına strateji məsələ kimi baxılması təqdirəlayiqdir. Araşdırmalar göstərir ki, Azərbaycan Respublikasında təhsil strategiyası çox ciddi, elmi şəkildə əsaslandırılmış aşağıdakı konsepsiyalara əsaslanır: "Azərbaycanda qara qızılın insan qızılına çevrilməsi", "Ekstron Azərbaycan", "Maddi kapitalın insan kapitalına çevrilməsi", "İnsan potensialının aşkara çıxarılması", "Azərbaycanın regionda lider dövlət olması", "Azərbaycanın Avropa təhsil məkanına inteqrasiyası". Bu məsələlər ölkə prezidenti İlham Əliyevin cənablarının məruzə və çıxışlarında konseptual müddəalarla əsaslandırılmışdır. Respublika Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan-2020: gələcəyə baxış" inkişaf konsepsiyasında da (maddə 7.2. Müasir təhsil sisteminin formalaşdırılması) və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" haqqında Sərəncamında ölkə təhsilinin inkişaf perspektivləri ilə bağlı konseptual problemləri, onların həlli yolları əhatə olunmuşdur. Burada göstərilir ki, 2013-2020-ci illərdə təhsil sahəsinə ayrılan vəsaitlərin ümumi həcminin ÜDM-dəki payı ilbəil artırılaraq, inkişaf etmiş ölkələrin müvafiq göstəricisi səviyyəsinə çatdırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi üçün stimullaşdırıcı mexanizmlərin yaradılması, xüsusən, adambaşına maliyyələşdirmə prinsipinin, həmçinin təhsil sahəsində tətbiqi tədqiqatların, eləcə də innovativ fəaliyyəti təşviqləndirən qrant maliyyələşdirilməsi nəzərdə tutulmuşdur.

Hazırda "İnteraktiv pedaqogika" ifadəsinə tez-tez rast gəlirik. Bu anlayışı ilk dəfə alman tədqiqatçısı Hans Frits işlətmişdir. Ona görə təlimdə interaktivlik öyrədən və öyrənənin qarşılıqlı təsir - əməkdaşlıq qabiliyyəti kimi başa düşülməlidir. Cəmiyyətin inkişafı pedaqoji kadrların hazırlığında yeni tələblər irəli sürür. Bu isə pedaqoji prosesin təkmilləşməsini, yeni məzmun, forma və metodlar tətbiq etməyi zəruri edir. Pedaqoji sistemin intensiv və ekstensiv yollarla təkmilləşdirilməsi keyfiyyətcə yeniləşməlidir. Yeni metodların tətbiqi, şagirdlərin müstəqil olaraq bilik və bacarıqlara yiyələnmələri interaktiv pedaqogikanın imkanlarına daxil olub, intensiv səciyyə daşıyır. Ekstensiv yol pedaqoji prosesə əlavə vaxt və vəsait sərf etməklə reallaşır. Məsələn, təlim müddətini uzatmaq, proqramları genişləndirmək və s. Pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması müəllim kadrlarının seçilməsinə də diqqətli yanaşma tələb edir. Xüsusilə pedaqoji kadrlar az olan ərazidə bu problemə həssas münasibət daha çox vacibdir. İ. Cəbrayılov yazır: "Dünya təcrübəsi göstərir ki, pedaqoji təmayüllü ali məktəbləri bitirmiş məzunlar arasından müəllim kadrları seçilərkən aşağıdakı perspektiv amillər nəzərə alınır: 1) rəqabət qabiliyyətli əmək haqqı; 2) karyera yüksəlişi; 3) bir peşəkar kimi müəllimlərə müəyyən səlahiyyətlərin verilməsi."(2, 9)

**Problemin aktuallığı:** Hal-hazırda Azərbaycan təhsilində uğurla həyata keçirilən təlimin məzmunu və metodları, öyrədici mühit, qiymətləndirməni özündə birləşdirən model milli zəminə söykənməklə dünya təcrübəsi əsasında öyrənilir, ümumbəşəri dəyərlərə müvafiq olaraq tətbiq edilir.

**Problemin elmi yeniliyi:** Təhsil müəssisələrində pedaqoji kadr hazırlığında dünyəviliyin nəzərə alınmasında bir çox metodlar və üsullardan istifadə yolları göstərilmişdir.

**Problemin tətbiqi əhəmiyyəti:** Elmi məqalədə istifadə olunan ideyalardan bir çox metodiki vəsaitlərin yazılmasında və dərs prosesində istifadəsi mümkündür.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. http: //president.az/ articles 9779/ print

2. Cəbrayılov İ. Pedaqoji kadr hazırlığının bəzi məsələləri. //Elmi əsərlər, Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu, 2014, № 2

3. Hüseynov İ., İsayev A., Əhmədov Z., Əliyev Ə. Müasir məktəb idarəetməsi və təhsil menecmentliyi. Peşəkar inkişaf mərəzi, Bakı, 2017.

4. Həmidov H. A. Azərbaycanda təhsil siyasəti: mərhələli inkişaf və konspektual aspektlər. Bakı: Təknur, 2010.
5. Həsənova P. İKT-nin təhsildə tətbiqinin psixoloji xüsusiyyətləri // Təhsildə İKT, ADPU, 2014, № 2
6. Həmidova L. Təlim strategiyaları prinsipləri və İKT // Təhsildə İKT, ADPU, 2014, № 2
7. Həsənov A.M., Ağayev Ə.Ə. Ali məktəblər üçün dərslik. Bakı: Nasir, 2007.
8. İbrahimov F.N.., Hüseynzadə R.L . Pedaqogika. I cild. Bakı: Mütərcim, 2013.

**E-mail**: qocayeva47@bk.ru
**Rəyçilər:** *ped.ü.fəls. dok., dos.* Ə. İsmayılxanova
*ped.ü.fəls. dok., dos.* H. Cəfərov
**Redaksiyaya daxil olub:** 09.12.2018.